*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 5 oktyabr 2019-cu il № 77 (2394) Qiyməti 30 qəpik


# Tarixlərin başlanğıcı olan tarixi gün

## Ulu öndər Heydər Əliyevin Azərbaycan Prezidenti seçilməsi ölkəmizin tarixində yeni mərhələnin başlanğıcını qoydu



*Bu gün dünyada elə bir xalq tapmaq olmaz ki, tarixinin taleyüklü və mürəkkəb mərhələsində onun taleyində müstəsna rol oynamış, dövlətçilik ənənələri formalaşdırmış milli lideri olmasın. Belə liderlərin mənalı və zəngin həyat səhifələrini vərəqləyərkən, onların mənsub olduğu xalqların da dövlətçilik ənənələri, tarixi, inkişaf səviyyəsi barədə aydın təsəvvür yaranır. Bu dahi şəxsiyyətlər yüksək mənəvi aləmləri ilə, ali bəşəri və milli ideallara, ümummilli mənafelərə ürəkdən bağlılıqları ilə milyonların qəlbində özləri üçün möhtəşəm abidə ucaldırlar.*

Hər bir xalqın tarixdəki yeri və rolu mürəkkəb siyasi şəraitdə məsuliyyəti üzərinə götürərək onun taleyində misilsiz rol oynamış, mütərəqqi ideyaları, qeyri-adi idarəçilik keyfiyyətləri ilə müdrikcəsinə və uzaqgörənliklə sabit dövlətçilik ənənələri yaratmış dahi şəxsiyyətin fövqəladə missiyası ilə şərtlənir. Tanrının bəxş etdiyi belə seçilmiş şəxsiyyətlər xalqlarının əsrlər boyu cilalanmış dövlətçilik təfəkkürü, siyasi dünyagörüşü, milli dəyərləri əsasında optimal dövlət modeli və siyasi varislik ənənələri yaradırlar.

XX əsr tariximizin parlaq siması, böyük şəxsiyyəti olan ümummilli lider Heydər Əliyevin siyasi portreti də Azərbaycan xalqının dövlətçilik təfəkkürünün, tarixin sınağından şərəflə çıxmış unikal idarəçilik məktəbinin, müasir ictimai-siyasi, fəlsəfi fikrin ən davamlı keyfiyyətlərinin canlı təcəssümüdür. Tarixşünaslıq elmi Heydər Əliyev şəxsiyyətini öyrəndikcə, əslində, müstəqil Azərbaycan dövlətinin tarixi keçmişini, bugününü, ölkəmizdə həyata keçirilən dövlət quruculuğu prosesini öyrənir.

Tarixi gerçəkliklərin müqayisəsi böyük şəxsiyyətlərin fəaliyyətinin qiymətləndirilməsində ən obyektiv istinad yeridir. Bu mənada, ulu öndər Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan istisnasız olaraq daim irəliləyən, iqtisadi, sosial, humanitar və mədəni sahələrdə intibaha can atan, hər addımda insan və şəxsiyyət amilini uca tutan ölkə kimi görünür.

Ümummilli lider Heydər Əliyevin müdrik və uzaqgörən idarəçiliyi sayəsində müstəqil Azərbaycan xarici siyasətində etibarlı tərəfdaşlıq və sabitlik mərkəzi kimi çıxış edən, iqtisadi və sosial rifah yolunda qətiyyətli addımlarla irəliləyən, "dövlət-vətəndaş" birliyinin təşəkkül tapdığı bir ölkəyə çevrilib.

Ötən yüzillikdə cərəyan edən hadisələrin təhlili göstərir ki, respublikanın müstəqilliyə gedən yolu 1969-cu ildən başlayaraq ulu öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə həyata keçirilən məqsədyönlü siyasətlə tamamlanıb. Zaman və ictimai-iqtisadi formasiya baxımından kifayət qədər fərqli olan hər iki tarixi dövrün əsas bənzər cəhətləri isə Ulu Öndərin Azərbaycana böyük nailiyyətlər qazandıran fədakar xidməti, eləcə də ölkənin inkişafında yeni impuls və tərəqqi meyillərinin geniş vüsət alması olub. Beləliklə, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi və tarixi şərait baxımından tamam fərqli olan dövrlər sadəcə eyni missiyanın, biri-birini tamamlayan iki mərhələsi kimi qiymətləndirilə bilər.

Azərbaycan xalqının taleyində böyük əhəmiyyətə malik elə günlər var ki, həmin vaxtlarda onun gələcək həyatını müəyyən edən mühüm başlanğıclarin əsası qoyulub.

Belə günlərdən biri də oktyabrın 3-nə təsadüf edir. Həmin gün xalqımız özünün gələcək taleyini, müqəddəratını həll edən seçim etdi. 1993-cü il oktyabrın 3-də ölkəmizdə keçirilən prezident seçkilərində Heydər Əliyev xalqımızın böyük əksəriyyətinin etimadını qazandı. Ulu Öndər 98,84 faiz səslə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu, Azərbaycan xalqı üçün mühüm tarixi hadisə, müstəqil Azərbaycan dövləti üçün isə qurtuluşa gedən yolun ilk pilləsi idi.

Heydər Əliyevin seçkilərdə bu cür böyük üstünlüklə qələbə qazanması qədirbilən xalqımızın Ulu Öndərə, onun möhkəm siyasi iradəsinə və yüksək nüfuzuna, idarəçilik istedadına olan dərin inamından qaynaqlanırdı. Azərbaycan xalqı bilirdi ki, bu ağır və böhranlı dövrdə ölkəyə sahib çıxa biləcək Heydər Əliyev kimi liderə ehtiyacı var.

Hələ 1969-1982-ci illərdə - Heydər Əliyevin birinci dəfə hakimiyyətdə olduğu müddətdə Azərbaycan üçün gördüyü misilsiz işlər xalqımız tərəfindən unudulmamışdı. Eyni zamanda, 1990-cı ildə 20 Yanvar faciəsinin ertəsi günü Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqımıza başsağlığı verməsi, onunla birgə olduğunu bəyan etməsi dahi liderə olan inamı daha da artırmışdı.

Həyatının mənasını xalqına və dövlətinə xidmətdə görən Ulu Öndərin müstəqil gənc respublikamıza rəhbərlik etdiyi dövrdə gördüyü əvəzsiz işlər Azərbaycanı çox qısa müddətdə beynəlxalq arenada böyük nüfuza və söz sahibinə malik bir ölkəyə çevirdi. O vaxt ölkəmiz dövlət müstəqilliyini yenicə bərpa etmişdi, Azərbaycan Ermənistanla müharibə şəraitində idi. Bu risk doğuran amillər böyük dövlətləri və şirkətləri Azərbaycana sərmayə yatırmaqda ehtiyatla davranmağa vadar edirdi. Ulu Öndərin beynəlxalq arenadakı şəxsi nüfuzu tərəddüdlərə son qoydu: 1994-cü il sentyabrın 20-də Azərbaycanın ən yeni tarixində dönüş nöqtəsi olan neft müqavilələri imzalandı. Sonradan "Əsrin müqaviləsi" adlandırılan bu Saziş ölkəmizin gələcək inkişafına və təhlükəsizliyinə etibarlı zəmin yaratdı, dünya xəritəsindəki mövqeyini möhkəmləndirdi. Azərbaycan artıq bütün dünyada neft ölkəsi olaraq tanınmağa başladı.

Azərbaycanın inkişafının sonrakı mərhələləri göstərir ki, ölkəmizi dünyanın vacib aktorları sırasına Heydər Əliyevin şəxsi nüfuzu sayəsində qazanılan uğurlar çıxarıb.

Heydər Əliyev yaxşı bilirdi ki, güclü, nizam-intizamlı ordu yaratmadan Ermənistanın torpaqlarımıza təcavüzünün qarşısını almaq mümkün olmayacaq. Odur ki, hakimiyyətə qayıdışından dərhal sonra bu məsələyə əsas prioritet kimi yanaşmağa, böyük diqqət ayırmağa başladı. Prezident Heydər Əliyev 1993-cü il oktyabrın 10-da andiçmə mərasimindəki çıxışında bu barədə danışaraq deyirdi: "Azərbaycan Respublikası bir müstəqil dövlət kimi özünü müdafiə etməyə qadir orduya malik olmalıdır. Təəssüf ki, müstəqillik əldə edildən sonra keçən dövrdə bu sahədə az iş görülübdür. Lazım gələrsə, sülh yolunda addımlarımız nəticə verməsə, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün, respublikanı müdafiə etmək üçün qüdrətli bir ordunun yaradılması bizim əsas vəzifəmizdir".

**(Ardı 3-cü səhifədə)**

# Azərbaycanın Müdafiə naziri Meksikanın ölkəmizdəki səfiri ilə görüşüb



Oktyabrın 2-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Meksika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Rodriqo Labardini ilə görüşüb.

Ölkələrimiz arasında müxtəlif istiqamətlərdə münasibətlərin daim inkişaf etdiyini qeyd edən Müdafiə naziri ikitərəfli hərbi əməkdaşlığın hüquqi bazasının yaradılması ilə əlaqədar hazırda müvafiq tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb.

Öz növbəsində səfir fəaliyyəti dövründə Azərbaycanla Meksika arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin genişləndiyini bildirib. Ölkəsinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə tərəfdar olduğunu qeyd edən diplomat regionda sabitliyin təmin olunması üçün beynəlxalq hüququn norma və prinsiplərinə əməl edilməsinin vacibliyini bildirib.

Görüşdə tərəflər Azərbaycan ilə Meksika arasında hərbi sahədə əlaqələrin hazırkı vəziyyəti və perspektivlərini müzakirə edib, qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparıblar.

# Azərbaycan və Almaniya Müdafiə nazirlikləri arasında ikitərəfli danışıqlar keçirilib



*Oktyabrın 2-də "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Almaniya Federativ Respublikası Federal Müdafiə Nazirliyi arasında 2019-cu il üçün ikitərəfli əməkdaşlıq Proqramı"na uyğun olaraq Bakı şəhərində hər iki ölkənin Müdafiə nazirlikləri arasında danışıqlar keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın mövcud vəziyyəti, inkişaf perspektivləri, hərbi təlim və təhsil üzrə əməkdaşlıq fəaliyyətləri müzakirə olunub, eləcə də regional təhlükəsizlik məsələləri barədə fikir mübadiləsi aparılıb.

*Təlim*

# Tankçılarımız döyüş hazırlığını artırır

*Bu gün müasir silah və texnika ilə təchiz olunan, dünya standartlarına uyğun qurulan, dünyanın aparıcı orduları sırasında yer tutan Azərbaycan Ordusu istənilən döyüşü Aprel və Günnüt zəfərləri kimi qələbə ilə tamamlamaq iqtidarındadır. "Döyüş aslanı" adlandırılan dünyanın ən müasir tankları bu gün ordumuzun silahlanmasına daxil edilərək, Ali Baş Komandanın "İrəli" əmriylə düşmən işğalında olan torpaqlarımızı hər an azad etmək qüdrətindədir.*

Bu günlərdə ordumuzun cəbhə xəttində yerləşən bölmələrindən birinin təlim meydanında çöl çıxışı zamanı tankçılarımızın praktik atışlarını və sürücülük məşqlərini izlədik. "Döyüş aslan"ları vahiməli səslərlə təlim poliqonunda irəli "düşmən" üzərinə şığıdı. Peşəkar tankçılarımız maskalanma prosesini təcrübədə uğurla yerinə yetirdilər.

Bölmənin zabiti Teymur Mustafayev bildirdi ki, təlim yerində tankçılarımız 3-5 gün müddətində çöl çalışmalarını yerinə yetirirlər. Plana uyğun olaraq keçirilən çöl çalışmalarının əhəmiyyəti ondadır ki, tankçılarımız qazandıqları təcrübəni daha da təkmilləşdirmək imkanı əldə edirlər.

- Tank bölmələri hansı imkanlara malikdir?, - sualımızı zabit T.Mustafayev belə cavablandırdı.

- Ümumiyyətlə, tank bölmələri uzaq məsafələrə sürətli yürüş etmək, düşmənin müdafiə xəttini yararaq yüksək templə hücum etmək imkanlarına malikdir. Həmçinin tank bölmələri dayanmadan su maneələrini keçə, su altında hərəkət edə, bərə vasitələrindən istifadə etməklə güclü müdafiə mövqeyi qura, qətiyyətli əks-hücum əməliyyatı həyata keçirə bilərlər. Bütün bu imkanlar tankçıları yenilməz edir. Bölməmizin şəxsi heyətini yenilməz edən təkcə tanklar deyil, həm də onların yüksək mənəvi-psixoloji, ideoloji və fiziki hazırlığa malik olmalarıdır.



Təlimləri müşahidə zamanı öyrənirik ki, bu il Rusiyada keçirilən "Beynəlxalq Ordu Oyunları-2019" çərçivəsində "Tank biatlonu" müsabiqəsində ordumuzu təmsil edən tank heyəti arasında bu bölmənin də hərbi qulluqçuları uğurla iştirak edib və onlar "Ən yaxşı heyət" yarışmasında uğur qazanıblar. Eyni zamanda, bölmənin bir neçə tank heyəti yaxın günlərdə ordumuzda keçiriləcək "Ən yaxşı tank bölüyü" adı uğrunda gedən yarışda da döyüş bacarığını sınayacaq. Qeyd edək ki, bu ilin aprel ayında ordu üzrə keçirilən "Ən yaxşı tank bölüyü" adı uğrunda yarışda iştirak edən bölüyün şəxsi heyəti ilk yerlərdən birini qazanıb. Qürurverici məqam odur ki, bölüyün şəxsi heyəti ordumuzun Aprel zəfərində fəal iştirak edən hərbi qulluqçuları sırasında olub.

Tank komandiri gizir Səməd Aslanov, gizir Asəf Əsgərov və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Şöhrət Aslanov gələn il keçiriləcək "Beynəlxalq Ordu Oyunları-2020" yarışmasında ölkəmizi, ordumuzu dünya dövlətləri sırasında layiqincə təmsil etmək, ən yüksək nəticələr qazanmaq üçün indidən hazırlaşdıqlarını dedilər.

Bölüyün əsgərləri Xalid Əliyev və Kamil Dəmirov tankçı peşəsinin sirlərinə dərindən yiyələndiklərini bildirdilər. "Hərbi xidmətə başladığımız ilk günlərdə bəzən çətinliklərimiz olurdu. Amma bu gün heç bir çətinliklə rastlaşmırıq. Çünki mütəmadi olaraq keçirilən dərs, məşğələ və təlimlərdə iştirak edirik. Qazandığımız bilik və təcrübə sayəsində istənilən döyüş tapşırığının öhdəsindən layiqincə gəlməyi bacarırıq".

Hər iki əsgər müddətli hərbi xidmətlərini başa vurduqdan sonra ordu sıralarına qayıdacaqlarını, tankçı olacaqlarını bildirdilər.

Öyrənirik ki, tank bölməsinin çox gözəl ənənəsi var. Vaxtilə burada müddətli hərbi xidmət keçən əsgərlər yenidən ordu sıralarında hərbi xidmətlərini davam etdirirlər. Onlar bu gün ordumuzun tank bölmələrində nümunəvi xidmətləri ilə seçilən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçularıdırlar. Əsgərlər Xalid Qasımov, Asif Qasımov, Fərman Hüseynov və Elmir Alıyev söhbət zamanı bildirdilər ki, döyüş hazırlığı dərslərində, taktiki məşğələlərdə, təlimlərdə, silah və texnikaya qulluq zamanı məsuliyyətlidirlər, özlərinə qarşı ciddi və tələbkardırlar. "Müharibədə qələbə qazanmaq üçün döyüşçü öz silahının və hərbi texnikasının sirlərini mükəmməl bilməli, onları həmişə döyüşə hazır vəziyyətdə saxlamalı, bacarıqla işlətməlidir. Biz tankın mühərrikindən tutmuş tırtılına qədər hər bir detal haqqında müfəssəl biliyə malik olmalıyıq. Bugünkü izlədiyiniz təlim zamanı isə əsasən, sürücülük vərdişlərimiz yoxlanıldı".

Biz bilirik ki, tank əsas döyüş texnikalarından biridir. Hər bir tankçı "dəmir atını" silib təmizləməli, texniki vəziyyətini daima yoxlamalı, hər an çıxışa hazır olub-olmadığını diqqətlə nəzərdən keçirməlidir. Elə izlədiyimiz təlimin məqsədi də cəbhə xəttində yerləşən tank bölmələrimizin döyüşə hazırlıq vəziyyətinin yoxlanılmasıdır. Tankçılarımızdan aldığımız təəssüratlar həmişə olduğu kimi, bu gün də ürəkaçandır.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Rəşad ƏMRAHOVUNDUR**

# Tarixlərin başlanğıcı olan tarixi gün

(Əvvəli 1-ci səhifədə)



Prezident Heydər Əliyev nitqində qətiyyətlə bəyan etdi ki, şəhidlərimizin qanı yerdə qalmayacaq. Azərbaycan xalqı öz qamətini düzəldəcək, ayağa qalxacaq, gücünü birləşdirəcək, müasir ordusunu yaradacaq və müstəqil dövlətini, öz ərazisini bundan sonra göz bəbəyi kimi qoruyacaq.

Bir müddət sonra Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində atəşkəsin əldə edilməsi ordu quruculuğunda köklü islahatların aparılması üçün əlverişli imkan yaratdı. Çox keçmədən ölkəmizdə ordu quruculuğu sahəsində ciddi addımlar atıldı. Vahid komandanlığa tabe olan nizami ordu yaradıldı, Silahlı Qüvvələrimizin maddi-texniki bazası gücləndirildi, ordumuz müasir silah və sursatla təmin olundu. Ötən ilin aprelində ordumuzun təmas xəttində baş verənlər sübut etdi ki, əsası Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu siyasəti düzgün və məharətlə həyata keçirilib. Bütün komponentlərdə üstün olan Azərbaycan Ordusu düşmən təxribatının qarşısını qətiyyətlə aldı və dünyaya qüdrətini nümayiş etdirdi.

Ümummilli Liderin qarşıya qoyduğu ümdə vəzifələrdən biri də milli dövlət quruculuğunu həyata keçirmək idi və bu məsələ də qısa zaman kəsiyində həllini tapdı. Azərbaycan xaosdan, anarxiyadan, hərc-mərclikdən, özbaşınalıqdan, parçalanma təhlükəsindən qurtuldu, sabitliyə, əmin-amanlığa qovuşdu. Ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət quruldu. Təsadüfi deyil ki, 1993-cü il Azərbaycanın tarixinə qurtuluş ili kimi daxil oldu. Bu gün öz tarixi və milli ənənələrindən bəhrələnən, dünya demokratiyası təcrübəsinə, ümumbəşəri dəyərlərə əsaslanan Azərbaycan dövləti tam təşəkkül tapıb və uğurla fəaliyyət göstərir. Ən əsası isə xalq və dövlət arasında sarsılmaz birlik mövcuddur.

Ümumilikdə, 1993-2003-cü illərdə ölkədə həyata keçirilən siyasət belə deməyə əsas verir ki, ulu öndər Heydər Əliyev müstəqillik amilinin əyani şəkildə bərqərar olması üçün, ilk növbədə, iqtisadiyyatda çoxşaxəli islahatların aparılmasını, davamlı inkişaf üçün möhkəm iqtisadi bazanın formalaşmasını vacib sayıb. Ulu Öndərin müstəqil Azərbaycana rəhbərliyi illərində milli iqtisadiyyatda köklü islahatlar aparılıb, sosialyönümlü bazar iqtisadiyyatına keçidin ümdə prinsipləri müəyyənləşdirilib, torpaq islahatı kimi çətin və ağrılı proses, habelə özəlləşdirmənin birinci mərhələsi uğurla başa çatdırılıb, milli sahibkarlığın inkişafı üçün zəruri qanunvericilik bazası yaradılıb, respublikanın dünya iqtisadiyyatına inteqrasiyası sürətlənib.

Ulu öndər Heydər Əliyev zamanın çağırışına cavab verən, zamanı qabaqlayan dahi şəxsiyyət idi. Onun fəaliyyəti sabaha ünvanlanan fəaliyyət idi. Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, ümummilli lider və xalq məhəbbətini qazanan ulu öndər kimi qalıb. Xalqımızın tarixi taleyində, mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğunda onun qədər misilsiz xidmətlər göstərmiş ikinci dövlət başçısı və siyasi lider tapmaq mümkün deyil.

Ümummilli lider Heydər Əliyev təkcə Azərbaycanın deyil, həm də dünyanın nadir və bənzərsiz şəxsiyyətlərindən biridir. Onun əziz xatirəsi hər bir azərbaycanlının, hər bir soydaşımızın qəlbində əbədi yaşayır və yaşayacaq.

2018-ci ilin 11 aprel seçkilərinin nəticələri bir daha sübut etdi ki, Azərbaycan cəmiyyəti uzun illərin sərt sınaqlarından üzüağ çıxaraq yüksək etimad qazanmış Heydər Əliyev siyasətinə sadiqdir. Cəmiyyətdə mütləq çoxluğun lider olaraq qəbul etdiyi Prezident İlham Əliyev ölkəmizin perspektiv inkişafı üçün qarşıda duran strateji hədəfləri inamla gerçəkləşdirmək istiqamətində əzmlə, yorulmadan, qətiyyətlə çalışır. Bütün bunlar deməyə əsas verir ki, 3 oktyabr tarixindən başlayaraq xalqımızı qurtuluşa aparan bu yol müstəqil Azərbaycanı qarşıdan gələn illərdə daha böyük nailiyyətlərə doğru aparır.

**"Azərbaycan Ordusu"**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### "Saber Junction-19" təlimindən hərbi qulluqçularımız Bakıya qayıdıb

Almaniyanın "Hohenfels" təlim mərkəzində keçirilən "Saber Junction-19" çoxmillətli briqada taktiki təlimində iştirak edən Azərbaycan Ordusunun hərbi qulluqçuları Bakıya qayıdıb.

Amerika Birləşmiş Ştatları Avropa Komandanlığı (EUCOM) tərəfindən keçirilən NATO-nun üzv və tərəfdaş ölkələrinin ordularının hərbi qulluqçularının da qatıldığı təlimdə Azərbaycan Ordusunun nümayəndələrinin peşəkarlığı beynəlxalq müşahidəçilər tərəfindən yüksək qiymətləndirilib.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***4 oktyabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Məzəm, Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əsrik Cırdaxan, Ağbulaq, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Əlahiddə Ümumqoşun Orduda kursantlara sertifikatlar təqdim edilib





Naxçıvan Qarnizonunda müxtəlif hərbi ixtisaslara yiyələnən kursantlara sertifikatlar təqdim edilib.

Naxçıvan Qarnizonunda gizir, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu və qadın hərbi qulluqçu kurslarının başa çatması münasibətilə keçirilən mərasimdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Tədbirdə çıxış edən polkovnik Mehman Gülməmmədov bildirib ki, kurslar zamanı əsas diqqət kursantların ən müasir silah və texnikaları dərindən öyrənməsinə, real döyüş şəraitində bacarıqla istifadəsinə yönəldilib. Bu məqsədlə keçirilən məşğələlərdə kursantlar müxtəlif növ atıcı və iriçaplı silahlardan praktiki atışlar, bütün növ zirehli tank texnikalarından sürücülük və atış çalışmalarını yerinə yetiriblər. Nəticədə isə məzunların əksəriyyəti kursları əla qiymətlərlə başa vurublar.

Məzun Azər Rüstəmov kurslarda qazandıqları bilik və bacarıqları xidmət yerlərində peşəkar hərbçi kimi tətbiq edəcəklərinə söz verib.

Valideynlər adından çıxış edən Ədalət Zalov bildirib ki, hər bir valideyn övladının peşəkar, vətənpərvər və bacarıqlı bir gənc olmağını arzulayır. Bir valideyn kimi bizi bu arzumuza çatdıraraq qürur hisslərini yaşadan dövlətimizə minnətdarıq. Çünki dövlətimizin qayğısı nəticəsində kurslarda iştirak edərək peşəkar hərbçi kimi yetişmək istəyən gənclərin arzuları artıq əlçatan olub.

Naxçıvan Qarnizonunun rəisi general-leytenant Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdıran general-mayor Elman Orucov bildirib ki, Vətənə sədaqətli, peşəkar hərbçi kadrların hazırlanması məqsədilə Naxçıvan Qarnizonunda müxtəlif hərbi ixtisaslar üzrə hazırlıq kursları təşkil olunur. Bu kursları uğurla başa vuran gənclərimiz Vətənə şərəflə xidmət edirlər. İnanırıq ki, hər zaman dövlət qayğısını üzərində hiss edən məzunlarımız da xalqdan güc alaraq və xalq-ordu birliyindən ruhlanaraq Vətənimizin müdafiəsində ayıqsayıq dayanacaqlar.

Təbrik oxunduqdan sonra kursları müvafiq olaraq 1-ci, 2-ci və 3-cü yerdə başa vuran məzunlara sertifikat və qiymətli hədiyyələr təqdim edilib. Bütün məzunlara sertifikatlar təqdim edildikdən sonra nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçular mükafatlandırılıblar.

Xatirə lövhələrinə buraxılış emblemləri vurulub və məzunların tribuna önündən təntənəli keçidi olub.

Sonda məzunlarla xatirə şəkli çəkdirilib.

**Leytenant
Nəriman NƏCƏFOV,
"N" hərbi hissəsi**

# “Aşpaz hazırlığı kursu”nu bitirən məzunlara setifikatlar təqdim edildi

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2019-cu il üçün fəaliyyət planına əsasən, "N" hərbi hissəsində "Aşpaz hazırlığı kursu"nu müvəffəqiyyətlə bitirən məzunların buraxılışı ilə əlaqədar tədbir keçirildi.*



Tədbirdə general-mayor Qədir Nəsibov, polkovnik Eldəniz Yəhyayev, hərbi hissənin şəxsi heyəti, kursun müəllim və məzunları iştirak etdilər.

Tədbirdə əvvəlcə "Aşpaz hazırlığı kursu"nda gizirlərin, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının, mülki işçilərin aşpazlıq ixtisası üzrə dərin biliklərə yiyələndiklərini deyən polkovnik Eldəniz Yəhyayev bildirdi ki, kursun keçirilməsində əsas məqsəd Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində çalışan hərbi aşpazların nəzəri bilik və praktiki bacarıq səviyyələrinin artırılmasıdır. "Qeyd edək ki, kurs 2017-ci ildən fəaliyyət göstərir və ildə 4 dəfə keçirilir. Ümumilikdə 7 dönəm keçirilən kursun 534 məzununa sertifikat təqdim olunub. 19 avqustdan 2 oktyabradək keçirilən budəfəki kursu isə 102 məzun bitirib. Hazırlıq kursunda aşpazlara qidanın düzgün, keyfiyyətlə hazırlanması qaydaları, ərzaq məhsullarının emalı zamanı əmələ gələn tullantıların normaları, texnoloji avadanlıqlardan düzgün istifadə qaydaları, bir sözlə, təhlükəsizliyin qorunması, xüsusi yeməkxana geyimlərinin təsdiq edilmiş qaydalara uyğun olması, sanitar-gigiyenanın zəruriliyi və ondan irəli gələn tələblərə ciddi, məsuliyyətlə riayət olunması və digər mövzularda nəzəri biliklərlə yanaşı, praktiki vərdişlər də aşılanıb. Sizin hər birinizi kursu müvəffəqiyyətlə başa vurmağınız münasibətilə təbrik edirəm. Arzu edirəm ki, burada qazandığınız nəzəri bilikləri, praktiki vərdişləri fəaliyyətinizdə və xidmətinizdə layiqincə tətbiq edəsiniz".

Sonra general-mayor Qədir Nəsibov qeyd etdi ki, şəxsi heyətin yüksək səviyyədə xidmət aparması onların keyfiyyətli qidalanmasından çox asılıdır. “Hər bir aşpaz öz işinin peşəkarı olmalıdır. Üzərinə düşən məsuliyyəti dərindən hiss etməlidir. Şəxsi heyətin düzgün və keyfiyyətli qidalarla təmin olunması olduqca vacib məsələdir. Qidanın keyfiyyəti ciddi yoxlanılmalı və qida təhlükəsizliyi ciddi qorunmalıdır. Orduda təşkil edilən "Aşpaz hazırlığı kurs"ları çox uğurla keçirilir. Bu gün təlim kursunu müvəffəqiyyətlə bitirməyiniz münasibətilə sizi təbrik edir, gələcək işlərinizdə uğurlar arzulayıram".

Buraxılış mərasimi "Aşpaz hazırlığı kursu"nu müvəffəqiyyətlə bitirən məzunlara sertifikatların təqdim olunması ilə davam etdi.

Daha sonra kursda təlim keçən müəllimlər, ehtiyatda olan mayorlar Şirin Eminov və Elçin Məhərrəmov dedilər ki, 40 gün müddətində keçirilən 30 saat dərsdə təyinatı mövzular üzrə aşpazlarımız lazımi biliklərə yiyələndilər. "Bu dönəmdəki kurs da səmərəli və yüksək səviyyədə təşkil olundu. Təlim kursunda iştirak edən hərbi qulluqçular və mülki işçilər kurs proqramı üzrə test imtahanından müvəffəqiyyətlə keçdilər, onlara "3-cü dərəcəli aşpaz ixtisas dərəcəsi" verildi".

"Aşpaz hazırlığı kursu"nu ən yüksək nəticələrlə bitirən, birinci yeri qazanan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Afaq Məmmədova, ikinci yerin sahibi müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Fuad Almasov, üçüncü yeri tutan çavuş Elxan Osmanov və əsgər Yusif Məmmədov, məzunlardan mülki işçilər Sevin Hüseynova, Günay Hüseynova, Münəvvər İsmayılova təlim zamanı əldə etdikləri bilik və bacarıqlara görə onlara əməyini əsirgəməyən peşəkar müəllimlərinə minnətdar olduqlarını bildirdilər.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Silah və hərbi texnika qış mövsümündə istismar rejiminə keçirilir



*Azərbaycan Ordusunun bütün hərbi hissə və bölmələrində silah, döyüş və xüsusi texnikanın istismarının qış mövsümünə keçirilməsi prosesi aparılır.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, silah və texnikanın qış dövründə fasiləsiz və dayanıqlı istismarını təmin etmək məqsədilə bütün hərbi hissələr mərkəzləşdirilmiş qaydada yanacaq-sürtkü materialları, digər zəruri ehtiyat hissələri və avadanlıqlarla təmin edilib.

Hərbi hissələrdə fəaliyyət göstərən texniki xidmət məntəqələrində döyüş və xüsusi texnikaların yanacaq-sürtkü materialları dəyişdirilib, onlara planlı şəkildə qulluq göstərilib.

Qış istismar rejiminə keçid soyuq iqlim şəraitində, dağlıq-düzənlik ərazidə, gecə və gündüz hərbi hissələrin döyüş qabiliyyətinin artırılması, eləcə də döyüşə hazırlığının yüksək səviyyədə saxlanılması məqsədilə icra olunub.



# “Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair dialoq hələlik bərpa olunmayıb”

*Son vaxtlar qoşunların təmas xəttində vəziyyət sakitdir, insidentlər azdır. Həlak olanların meyitləri dəyişdirilib. Saxlanılan şəxslərin dəyişdirilməsinə hazırlıq görülür.*

AZƏRTAC xəbər verir ki, Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov bunu "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında Dağlıq Qarabağ prosesinin nizamlanması haqqında sualı cavablandırarkən bəyan edib.

Nazir deyib: "ATƏT-in Minsk Qrupunun həmsədrləri sıx dostluq şəraitində çalışırlar. Onlar bu il üç dəfə xarici işlər nazirləri ilə görüşüblər, o cümlədən bu ilin aprelində mənim iştirakımla Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri ilə görüş keçirilib. İndi vəziyyət bir il əvvəlkindən sakitdir. Lakin siyasi proses yavaşıyıb və hələlik bu ləngiməni aradan qaldıra bilmirik. Tərəflər yetərincə ciddi bəyanatlar verirlər. Şübhəsiz ki, belə bəyanatlar siyasi prosesin tənzimlənməsinə kömək etmir".

Rusiya XİN-in ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə birgə işlədiyini vurğulayan S.Lavrov deyib: "Bu, az sayda hallardan biridir ki, bizim məsələyə baxışımız tamamilə eynidir, bizim baza sənədlərimiz var. Bizim dəfələrlə müzakirə olunmuş baza prinsiplərimiz var. Bu prinsiplər əsasında məsələnin həllini axtaracağıq. Amma məsələnin həlli birbaşa dialoq yolu ilə tapılmalıdır. Əlaqələr var, lakin nizamlanmaya dair dialoq hələlik bərpa olunmur. Mən burada döyüş əməliyyatlarının yenidən başlanması üçün aşkar təhlükə görmürəm. Biz bunun baş verməməsi üçün hər şeyi edəcəyik".

# Daha 112 şəhidin 191 vərəsəsinə birdəfəlik ödəmə verilməsi barədə qərar qəbul edilib

Prezident İlham Əliyevin müvafiq Fərmanının icrası ilə əlaqədar olaraq, şəhidlərin vərəsələrinin birdəfəlik ödəmə (11 min manat) təminatı işləri davam edir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, komissiyanın növbəti iclasında daha 112 şəhidin 191 vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul olunub.

Birdəfəlik ödəmələrin yaxın günlərdə həmin vərəsələrin bank hesablarına köçürülməsi üçün müvafiq işlər aparılır. Ümumilikdə 12 min 268 şəhidin vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ müəyyən edilib. Bu günədək artıq 11 min 619 şəhidin 17 min 302 vərəsəsinin birdəfəlik ödəmə ilə təminatına dair qərar qəbul edilib.

Qeyd edək ki, şəhidlərin vərəsələrinin birdəfəlik ödəmə ilə təminatı proqramı 95 faiz icra olunub.

*Gənc əsgərlərin hazırlığı*

# “Orduda xidmət etmək şərəfli vəzifədir”



*Müasir ordumuzun banisi, ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, orduda xidmət etmək hər bir Azərbaycan vətəndaşı üçün, hər bir gənc üçün böyük iftixar mənbəyi, şərəfli bir vəzifədir. Bu gün hərbi xidmətə çağırılan gənclərin Ulu Öndərin bu dəyərli sözlərini dərk edərək, Vətən qarşısında övladlıq borcunun öhdəsindən layiqincə gəldiklərinin şahidi oluruq.*

Danılmaz faktdır ki, gənclərdə vətənpərvərlik hissinin formalaşmasında, onların cəmiyyətə yararlı vətəndaş kimi hazırlanmasında və digər mənəvi keyfiyyətlərə yiyələnməsində əsgəri xidmətin rolu böyükdür. Hərbi xidmət dövründə gənclər milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda, gələcəyin nümunəvi vətəndaşları kimi formalaşırlar. Hərbi xidmətə gələn gənclərin bacarıqlı, vətənpərvər əsgərlər kimi formalaşmasının təməli gənc əsgər hazırlığı dövründən başlanır. Bunun üçün də ordumuzda gənc əsgər hazırlığına yüksək diqqət göstərilir.

Gənc əsgər hazırlığının başa çatması ilə əlaqədar "N" hərbi hissəsinə ezam olunduq. Hərbi hissənin zabiti mayor Rəşad Məmmədovla salamlaşıb birbaşa sıra meydanına üz tutduq. Zabit təlim müddətindən, keçirilən məşğələlərdən, gənclərin hərbi bilikləri hansı səviyyədə mənimsəməsindən söz açdı. O bildirdi ki, bir neçə günə gənc əsgər hazılığı başa çatacaq və gənclər artıq buradan xidməti yerlərinə yollanacaqlar. "Bu gün ordumuzun bütün birləşmələrində gənc əsgərlərə yüksək səviyyədə təlim keçirilir. Təlim müddətində atəş hazırlığı, döyüş taktikası, sıra hazırlığı, ictimai-siyası hazırlıq, fiziki hazırlıq və digər hərbi biliklərdən əyani və praktiki məşğələlər təşkil olunur. Bu müddət ərzində gənclər artilleriya, mühəndis, motoatıcı, rabitə və digər ixtisaslara yiyələnirlər. Hərbi hissəyə daxil olduqları gündən onlarla fəal iş aparmağa başlamışıq. Ölkəmizin əksər bölgələrindən çağırılan gənclərin hər biri ilə fərdi söhbət aparıb, xarakterlərini öyrənirik. Bu gün gənc əsgərlər vahid ailə olan hərbi kollektivin bərabər üzvləridirlər. Onlar hər şeydən öncə hərbi qanunvericiliyin əsas müddəaları ilə tanış olurlar. Sıra hazırlığı keçirlər, döyüş hazırlığı dərslərinə cəlb edilirlər, atış çalışmalarını yerinə yetirirlər. Bir sözlə, onlara gənc əsgər hazırlığı müddətində lazım olan bilik və vərdişlər aşılanır. Bunlarla yanaşı, hərbi həkimlərimiz onların sağlamlığının keşiyində dayanırlar. Müasir avadanlıqlarla təchiz olunan tibb məntəqəmizdə mütəmadi olaraq yoxlanışdan keçirlər, şikayəti olanlar müalicə olunurlar. Eyni zamanda, onların asudə vaxtlarının səmərəli təşkil olunmasına da xüsusi diqqət yetirilir. Hərbi vətənpərvərlik mövzusunda tədbirlərdə iştirak edir, filmlər izləyirlər. Burada hərbi xidmətin ilkin mərhələsini layiqincə başa vururlar. Əminliklə deyə bilərik ki, təlimi uğurla başa vuran gənclərimizin hər biri bundan sonrakı xidmətlərini də layiqincə yerinə yetirəcəklər. Çünki Azərbaycan gənci Vətənə ürəkdən bağlı olan, hərbi xidməti övladlıq borcu bilən vətənpərvər gənclərdir."

Zabitlə birlikdə gün boyunca keçirilən bir neçə məşğələdə iştirak etdik. Gənc əsgər hazırlığının yüksək səviyyədə təşkilinin əyani şahidi olduq. İlk olaraq sıra meydanında keçirilən sıra hazırlığı məşğələsini izlədik. Əsgərlərin nizami hərəkətləri, verilən komandaları həvəslə və ürəklə yerinə yetirmələri könül oxşadı.

Kiçik çavuş Ramin İsmayılov əsgərlərə sıra hazırlığının elementlərini əvvəlcə özü göstərir, sonra isə onların bu hərəkəti təkrarlamağına komanda verirdi. Gənclər əsgəri salamlama, sırada hərəkət, hərəkətdə sağa-sola, geriyə dönmələr, yuxarı rəislərə yaxınlaşma, özünü təqdim etmə və digər komandaları bacarıqla icra edirlər. Görünür ki, təlim müddətində əsgərlər sıra hazırlığının elementlərini yaxşı mənimsəyiblər. Kiçik çavuş R.İsmayılov dedi ki, sırada dayanan əsgərlərin hər biri gəldiyi ilk gündən məşğələlərə həvəslə yanaşır, öyrədilənləri tez qavrayır və bununla da hərbi vərdişlərə yiyələnirlər. "Hiss edirsən ki, hərbi xidmətə istəkləri çox yüksəkdir. Hər biri öyrənməyə, verilən tapşırıqları dəqiq yerinə yetirməyə can atır. Bu təlim müddətində gəncləri bacarıqlı əsgərlər kimi formalaşdırmaq qarşımıza qoyulan ən vacib vəzifələrdəndir. Çünki hazırlıq dövründən sonra onlar səngərdə torpaqlarımızı düşməndən qoruyacaq, düşmən təxribatlarının qarşısını alacaq, əlində silah Ali Baş Komandanımızın döyüş əmrinə hər an hazır olacaqlar. Bunun üçün də təlim müddətində hərbi bilik və bacarıqlara dərindən yiyələnməlidirlər ki, sonrakı mərhələyə hazır olsunlar. Bu vəzifənin öhdəsindən layiqincə gəlmək üçün bütün biliklərimi səfərbər edirəm. Komandir heyəti olaraq çalışırıq ki, sıradaki hər bir əsgərimiz ən yüksək hazırlığa malik olsun. Bundan ötrü bölməmizin digər zabit və gizirləri, manqa komandirləri öz bacarıq və səylərini əsirgəmirlər. Gənclərin də xidmətə sevgi ilə yanaşması, hərbi bilikləri həvəslə öyrənməsi bizə ruh yüksəkliyi aşılayır. Təlim müddətinin sonunda onlara nələrisə öyrətdiyimizi görəndə sevinirik."

Ordunun əsas tələblərindən olan dəmir intizam, eləcə də gənc əsgərin ordu vərdişlərinə hazırlığı öncə sıra hazırlığından başlanır. Bu gün sırada düzgün addım atmağı bacaran və yaxud sırada şux görünən gənclərin nizam-intizamına, sıra hazırlığının elementlərini bacarıqla yerinə yetirmələrinə şahid olmaq bir daha əminlik yaradır ki, onlar hərbi formanı geyinib, Azərbaycan əsgəri adını daşımaqla qürur duyurlar və bundan sonra da Vətənə layiqli xidmət edəcəklər.

Mayor Rəşad Məmmədov növbəti məşğələnin atəş hazırlığından olduğunu bildirdi. "Təlim müddəti dövründə keçirilən məşğələlərdən biri də atəş hazırlığıdır. Bu dərslərdə gənclər ixtisaslarına uyğun olaraq onlara təyin olunan silahların sökülüb yığılmasını, təyinatını, hissə və mexanizmlərini öyrənirlər. Həmçinin, bu öyrəndiklərini atış meydanında praktiki olaraq icra edirlər. Artıq hər biri ona təhkim olunan silahın xüsusiyyətlərini, atış xassələrini və ondan bacarıqla istifadə etməyi öyrənib. Təlim atış çalışmalarında aldıqları yüksək qiymətlər də bunun sübutudur. Gördüyünüz kimi, dərs zamanı da silahı sərbəst şəkildə söküb yığırlar. Təyinatını, iş mexanizmini hər biri əzbər bilir", - mayor R.Məmmədov dedi.

Dərs zamanı əsgərlər silahların natamam sökülüb-yığılması üzrə normativləri bacarıqla yerinə yetirdilər, verilən sualları dəqiqliklə cavablandırdılar. Görünür ki, gənclər hərbi bilikləri dərindən mənimsəyiblər. Artıq düşmənlə üzə dayanaraq, torpaqlarımızı inamla qorumağa tam hazırdırlar. Gənclərin hazırlıq müddətini uğurla başa vurduğunu gördükcə əmin olursan ki, bu igidlərin hər biri ordumuzun istənilən bölməsində, yerləşdiyi yerdən və şəraitdən asılı olmayaraq uğurlu xidmət edəcəklər.





Zabitlə əsgər yataqxanasına yollanırıq. İçəridəki təmizlik, səliqə-sahman burada nizam-intizamın yüksək səviyyədə olduğunu və xidmətin düzgün təşkilini bir daha göstərir. Səliqəli və müasir avadanlıqlarla təchiz olunmuş məişət otaqları və ikimərtəbəli çarpayılar, pambıq yataq dəstləri, qalın yun adyallar, yuyunma ləvazimatları olan dolablar və s. yerləşən yataq otaqları ilə tanış olduqdan sonra ideoloji otağa daxil oluruq. Leytenant Orxan Bayramlı ictimai-siyasi hazırlıq məşğələsi keçirdi. Əsgərlərə dərsin mövzusuna uyğun məruzə oxuyan zabit, ictimai-siyasi hazırlıq dərslərinin keçirilməsinin vacibliyini vurğuladı.

"Hərbi xidmətə gələn gənclərin mənəvi dəyərlərə sədaqətli, Vətən sevgisinin, düşmənə nifrət hissinin nə olduğunu dərk edən, qorxmaz və cəsur əsgərlər kimi formalaşmasında ictimai-siyasi hazırlıq dərslərinin mühüm əhəmiyyəti var. Bu məşğələlərdə ordumuzun yaranması və inkişafından, tariximizdən, hərbi nizamnamələrdən, vətənpərvərlikdən, qəhrəmanlıq nümunələrindən, erməni təcavüzündən və s. mövzularda keçirilən dərslər onların həm döyüş ruhunun, həm də mənəvi-psixoloji hazırlığının artırılmasında vacib rol oynayır. Əsgərlər "Azərbaycan Ordusu" qəzetindən, "Hərbi bilik" jurnalından məqalələr oxuyur, ordumuzda gedən təlimlərdən, yeniliklərdən xəbərdar olurlar. Gördüyünüz kimi, yüksək tərtibatla hazırlanmış sinif otağımızda ordumuzun inkişaf tarixinin mərhələlərini, ulu öndər Heydər Əliyev və Ali Baş Komandan İlham Əliyevin əsgərlərlə görüşlərini, erməni təcavüzünü, Hərbi andı və Dövlət himnini əks etdirən maraqlı eksponatlar yerləşir. Bunların hamısı əsgərlərin dünya görüşünün, mənəvi-psixoloji hazırlığının artırılmasında, həmçinin dərsin səmərəli təşkilində mühüm rol oynayır."

Zabitin dediklərinin dərs zamanı da şahidi olduq. Əsgərlərin hər biri mövzu barəsində verilən sualları düzgün şəkildə cavablandırdılar. Onların hazırcavablığı mənəvi-psixoloji hazırlıqlarının və dünya görüşlərinin yüksək olmasından xəbər verir.

Əlbəttə, bu gün hər birimizin ən böyük arzusu tezliklə doğma yurd yerlərimizin düşmən işğalından azad edilməsidir. İnanırıq ki, məğrur Vətən qoruyucuları kimi formalaşan igidlərimiz bu vəzifənin öhdəsindən inamla gələcəklər. Onlar təcrübəli zabitlərin nəzarəti altında təlim keçir, səmərəli keçən məşğələlərdə hərbi bilik və vərdişlərə yiyələnirlər. İrəliyə atdıqları addımlar onları qazanılacaq uğurlara aparır...

Əsgərlərin gündəlik fəaliyyətindən danışdıqda fiziki hazırlıq saatlarını mütləq qeyd etməliyik. Fiziki hazırlıq əsgərlərin həm döyüş qabiliyyətinin artırılmasına, həm də sağlamlığının möhkəmləndirilməsinə istiqamətlənmiş fəaliyyət prosesidir. Əsgərlər bədən tərbiyəsi ilə nə qədər çox məşğul olsalar, o qədər fiziki cəhətdən möhkəm, güclü və sağlam olarlar. Yüksək fiziki hazırlıq onların döyüş qabiliyyətinə də müsbət təsir göstərir. İdmanla məşğul olan hərbi qulluqçu dözümlü, cəsur olur, həm də döyüş tapşırıqlarını daha çevik və dəqiq yerinə yetirir. Bu da bacarıqlı əsgərlərin formalaşmasında döyüş hazırlığı ilə yanaşı, fiziki hazırlığın da rolunu artırır.

Gizir Elnur Əliyevin nəzarəti altında baş tutan fiziki hazırlıq məşğələsini izləyirik. Elnur bildirdi ki, gənc əsgər hazırlığı dövründə mütəmadi olaraq keçirilən sıra və döyüş hazırlığı dərsləri ilə yanaşı, fiziki hazırlığa da önəm veririk. "Təlim müddətində gənclərdə həm sağlamlığı, həm də dözümlülüyü formalaşdırmaq üçün hərbi hissənin idman meydançasında mütəmadi olaraq fiziki hazırlıq dərsləri keçirilir. Vətənin müdafiəsinə hazırlaşan gənclərin mərd, cəsur əsgərlər kimi formalaşmasında fiziki hazırlığın rolu əvəzsizdir. Döyüş hazırlığı ilə yanaşı, keçirilən fiziki hazırlıq dərsləri xidmətə yeni başlayan gənclərin möhkəm, güclü və sağlıqlı olmalarına müsbət təsir edir. Həmçinin onların döyüş ruhuna, psixoloji və iradi keyfiyyətlərinin formalaşmasına müsbət təsir edir, sağlamlıqlarını möhkəmləndirir. Artıq təlim müddətinin son günləridir və əsgərlərin hər biri idman normativlərini bacarıqla yerinə yetirirlər. Həm də yaxşı dərk edirlər ki, fiziki hazırlıq döyüş hazırlığının tərkib hissəsidir."

**Baş leytenant Orxan HÜSEYNLİ,**
**leytenant Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar Coşqun CƏFƏROVUNDUR**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**

**1. Hərbi əmlakı qorumaq hərbi qulluqçunun borcudur.**

**2. Əsgər və çavuşların dövlətə vurulan ziyana görə maddi məsuliyyəti.**

**3. Hərbi qulluqçuların dövlətə vurduqları maddi ziyana görə cinayət məsuliyyəti.**

**Mövzu:** Hərbi əmlakı qorumaq hərbi qulluqçunun borcudur. Əsgər və çavuşların dövlətə vurulan ziyana görə maddi məsuliyyəti.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Silahlı Qüvvələrin nizamnamələrindən, Azərbaycan Respublikası Cinayət Məcəlləsindən və "Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında" Əsasnamədən istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

### *Hərbi əmlakı qorumaq hərbi qulluqçunun borcudur*

Hərbi əmlak nədir? Hərbi əmlak dedikdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qoşun, birlik, birləşmə, hərbi hissə, xüsusi təyinatlı təhsil müəssisələri, idarə və təşkilatların sərəncamında olan silahların, döyüş texnikasının və başqa texnikanın bütün növləri, döyüş sursatı, yanacaq, ərzaq, əşya, mühəndis, kimya vasitələri və evlər, digər maddi və pul vəsaitləri başa düşülür.

Ölkə rəhbərliyi Azərbaycan Ordusunun döyüş qüdrətinin yüksəldilməsi üçün ardıcıl iş aparır. Döyüş hazırlığı prosesinin keyfiyyətli və səmərəli təşkili üçün Silahlı Qüvvələrimiz lazımi maddi və texniki vasitələrlə təmin olunur. Ölkə rəhbərliyinin bu qayğısı sayəsində Azərbaycan Ordusunun hissələri öz döyüş qabiliyyətini artırır.

Ordu quruculuğunu daim öz nəzarəti altında saxlamış, müasir Azərbaycan dövlətçiliyinin və milli hərbi qüdrətimizin yaradıcısı ümummilli lider Heydər Əliyev Silahlı Qüvvələrin inkişafı və maddi bazanın möhkəmləndirilməsi məqsədilə 2002-ci il avqust ayının 17-də "Silahlı Qüvvələrə yardım fondunun yaradılması haqqında" fərman imzalamışdır.

Bu gün Azərbaycan Ordusunda olan döyüş texnikası və digər texnika, silahlar və sursatlar döyüş qabiliyyətini yüksək səviyyədə saxlamağa imkan verir. Ömrünü Azərbaycanın dövlət müstəqilliyinin və onun beynəlxalq nüfuzunun yüksəldilməsinə sərf etmiş ümummilli lider Heydər Əliyevin ölkəmizin müdafiə potensialı üzrə götürdüyü strateji xətti qətiyyətlə və uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev demişdir: "Ordu quruculuğunda da böyük addımlar atılacaqdır. Artıq bu istiqamətdə çox böyük dəyişikliklər mövcuddur və bu proses davam edəcəkdir. Azərbaycanın müdafiə potensialı güclənəcəkdir. Bu, bizim strateji xəttimizdir".

Hərbi xidmətə çağırılan hər bir vətəndaş xidməti vəzifələrini yerinə yetirmək üçün dövlət tərəfindən silah və texnika ilə, eləcə də öz şəxsi tələbatlarını ödəmək üçün müəyyən olunmuş normalarda ərzaq, əşya və pul təminatları ilə təmin olunur. Bu isə hərbi qulluqçudan ona həvalə olunmuş maddi vəsaitlərə qayğı ilə yanaşmağı, onları qorumağı və israfçılığa yol verməməyi tələb edir. Hərbi qulluqçuların maddi məsuliyyəti hərbi qanunvericilik aktları ilə müəyyən edilir. Silahlı Qüvvələrin Daxili Xidmət Nizamnaməsində əsgərlərdən (matroslardan) tələb edilir:

- əsgər (matros) sülh və müharibə dövrlərində ona tapşırılan vəzifələrin və tapşırıqların vaxtında və dəqiq yerinə yetirilməsi ilə yanaşı, öz silahının, eləcə də ona həvalə olunan döyüş texnikası və digər texnikanın vəziyyətinə cavabdehdir;

- dövlət əmlakını qorumaq, geyimi və ayaqqabını səliqə ilə geymək, onları vaxtında təmir etmək, təmizləmək və göstərilmiş yerdə saxlamaq əsgərin (matrosun) vəzifə borcudur.

### *Əsgər və çavuşların dövlətə vurulan ziyana görə maddi məsuliyyəti*

Azərbaycan Respublikasının 10.01.1995-ci il tarixli Qanunu ilə "Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında" Əsasnamə təsdiq edilmişdir. Bu Əsasnaməyə 04.11.97-ci il, 05.03.2004-cü il, 21.12.2010-cu il və 17.05.2011-ci il tarixlərdə bir sıra əlavə və dəyişikliklər edilmişdir. Əsasnamə hərbi qulluqçuların və toplanışa çağırılmış hərbi vəzifəlilərin dövlətə vurduqları ziyana görə maddi məsuliyyətinin əsaslarını, vurulan ziyanın miqdarının müəyyən edilməsinin və ödənilməsinin qaydalarını tənzimləyir.

Hərbi qulluqçular hərbi nizamnamələrlə, əmrlərlə və digər aktlarla nəzərdə tutulan vəzifə borclarını yerinə yetirərkən dövlətə vurduqları ziyana görə təqsirli olduqda bu Əsasnaməyə uyğun olaraq maddi məsuliyyət daşıyırlar.

Hərbi qulluqçular vəzifə borclarını yerinə yetirmədikləri zaman vurduqları ziyana görə ümummülki qaydada maddi məsuliyyət daşıyırlar.

Hərbi qulluqçular və toplanışa çağırılmış hərbi vəzifəlilər komandirin (rəisin) əmrini vicdanla yerinə yetirmələri və ya konkret şəraitdə haqlı xidməti risk nəticəsində, yaxud hüquqi hərəkətlər nəticəsində dövlətə vurduqları ziyana görə maddi məsuliyyət daşımırlar.

Hərbi qulluqçular və toplanışa çağırılmış vəzifəlilər tərəfindən dövlətə vurulmuş ziyan, onların həmin ziyana səbəb olmuş hərəkətlərinə (hərəkətsizliyinə) görə intizam və yaxud cinayət məsuliyyətinə cəlb edilib-edilməməsindən asılı olmayaraq ödənilir.

Hərbi əmlakın çatışmazlığının və ya itirilməsinin aşkarlanması zamanı mütləq cavabdeh şəxsin iştirakı ilə inventarlaşma keçirilərək akt tərtib olunur, çatışmayan əmlakın miqdarı və faktiki dəyəri, əmlaka cavabdehliyin kimə həvalə olunması barədə arayış araşdırma materiallarına əlavə olunur. Dəymiş ziyanın faktiki məbləği barədə arayış hərbi əmlakı zədələmə və ya məhv etməyə dair araşdırmalarda olur.

Hərbi qulluqçular öz təqsirləri üzündən dövlətə vurduqları zərərin tam həcmi məbləğində maddi məsuliyyət daşıyırlar:

- hərbi əmlakın qəsdən məhv edilməsi, zədələnməsi, korlanması, oğurlanması, qanunsuz sərf edilməsi və ya cinayət məsuliyyətinə səbəb olub-olmamasından asılı olmayaraq qəsdən edilən başqa hərəkətlərlə zərər vurulduqda;

- naryad və başqa sənədlərlə faktiki görülməmiş işlər görülmüş işlər kimi göstərildikdə, hesabat rəqəmləri təhrif edildikdə və dövlət başqa şəkildə aldadıldıqda;

- zərər sərxoş vəziyyətdə olan şəxs tərəfindən vurulduqda;

- zərər cinayət məsuliyyətinə cəlb olunan şəxs tərəfindən vurulduqda.

Əgər maddi məsuliyyətə cəlb olunmuş hərbi qulluqçu və ya toplanışa çağırılmış hərbi vəzifəli dövlətə vurduğu zərəri ehtiyata və ya istefaya buraxıldığı və ya toplanışın qurtardığı günədək ödəməyibsə, onun borcu yaşadığı yerin icra məmuru tərəfindən mübahisəsiz qaydada, buraxılmış hərbi qulluqçunun və ya toplanışa çağırılmış hərbi vəzifəlinin yaşayış (iş) yerinə hərbi hissə, müəssisə, hərbi məktəb, idarə və təşkilat komandirinin (rəisinin) göndərdiyi notariat işlərini yerinə yetirən orqanların icra qeydi əsasında tutulur.

Təqsirli şəxsdən tutulması mümkün olan məbləğdən artıq zərərin miqdarı komandirin (rəisin) qərarı ilə ona verilmiş hüquqlar həddində dövlət hesabına keçirilir.

Bu Əsasnamənin dəqiq və eyni cür yerinə yetirilməsinə nəzarət Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq Azərbaycan Respublikasının Baş prokuroru və ona tabe olan hərbi prokurorlar tərəfindən həyata keçirilir.

### *Hərbi qulluqçuların dövlətə vurduqları maddi ziyana görə cinayət məsuliyyəti*

Çağırış və ya kontrakt üzrə Azərbaycan Respublikası Silahlı Qüvvələrində hərbi xidmət keçən hərbi qulluqçuların, qanunla müəyyən edilmiş qaydada hərbi qulluqçu statusuna malik olan başqa şəxslərin, habelə təlim və ya yoxlama toplanışlarına cəlb edilmiş hərbi vəzifəlilərin hərbi qulluğun müəyyən edilmiş qaydaları əleyhinə yönələn cinayətlər hərbi xidmət əleyhinə olan cinayətlər hesab olunur.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin "Hərbi xidmət əleyhinə olan cinayətlər" bölməsində hərbi qulluqçuların dövlətə vurduqları maddi ziyana görə cinayət məsuliyyəti müəyyən edilmişdir:

**Maddə 347.** Hərbi əmlakı itirmə.

Bu maddədə hərbi qulluqçulara xidməti istifadə üçün verilmiş silahın, döyüş sursatının, nəqliyyat vasitələrinin, texniki təchizat əşyalarının və ya sair hərbi əmlakın saxlanması qaydalarını pozma nəticəsində hərbi əmlakın itirilməsinə görə məsuliyyət nəzərdə tutulub. Belə əməllərə görə hərbi qulluqçu minimum əmək haqqının iki yüz manatadək miqdarda cərimə və ya iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

**Maddə 348.** Hərbi əmlakı ehtiyatsızlıqdan zədələmə, xarab etmə və ya məhv etmə.

Belə əməllər minimum əmək haqqının beş yüz manatadək miqdarda cərimə və ya iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Eyni əməl müharibə vaxtı və ya döyüş şəraitində törədildikdə beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

**Maddə 349.** Hərbi əmlakı qəsdən məhv etmə və ya zədələmə.

Silahı, döyüş sursatını, hərbi texnikanı və ya sair əmlakı qəsdən məhv etmə və ya zədələmə, digər cinayətin əlamətləri olmadıqda minimum əmək haqqının beş yüz manatadək miqdarda və ya iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya dörd ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Bu əməllər təkrar və ya bir qrup şəxs tərəfindən törədildikdə, ağır nəticələrə səbəb olduqda, müharibə və ya döyüş şəraitində törədildikdə üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Hər bir hərbi hissənin öz təyinatına görə müvafiq tapşırıqları var. Bu tapşırıqları yerinə yetirmək üçün hissə və bölmələr kifayət qədər texnika və silahlara, sursata malikdirlər. İctimai-siyasi hazırlıq sistemində öyrənilən bu mövzu hərbi qulluqçuları onlara həvalə olunmuş döyüş texnikasını, digər texnika və silahları, hərbi əmlakı qoruyub saxlamağa və ondan bacarıqla istifadə etməyə, Azərbaycan xalqı və dövləti qarşısında Vətənin müdafiəsi, ərazi bütövlüyünün bərpası və müstəqilliyimizin təmin olunmasında məsuliyyətlərini şüurlu dərk etməyə səfərbər etmək üçün planlaşdırılır və keçirilir.

*Qrup rəhbəri mövzunu yekunlaşdırarkən dinləyicilərə bir daha Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin aşağıdakı sözlərini xatırlatmalıdır: "Azərbaycan Ordusu güclü ordudur. Biz çalışacağıq və əminəm nail olacağıq ki, bu ordu daha da güclənsin və qarşıda duran bütün məsələləri həll edə bilsin".*

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

Heç kim unudulmur

# "Nəvəm oğlumun yolunu davam etdirəcək"



*Babək rayonunun Nehrəm kəndində övladının həsrəti bəyaz qar kimi saçlarına hopan, ürəyində düşmənə nifrəti, gözlərində qələbəyə ümid qığılcımı gəzdirən şəhid anasıyla - Nərgiz anayla görüşmək, onunla həmsöhbət olmaq həm çətin, həm də şərəfli idi mənim üçün. Nərgiz ananın söhbətini dinlədikcə vətənpərvər, vətənpərvər olduğu qədər məğrur, məğrur olduğu qədər də duyum sahibi olan bir ana obrazı canlanırdı gözümdə.*

Nərgiz ana ali təhsillidir. Sovet dövründə kolxozda briqadir olub. Fəaliyyət göstərdiyi müddətdə "Qırmızı əmək bayrağı" ordeni alıb, yaxşı işinə görə dəfələrlə fəxri fərmanlara layiq görülüb. Ailə qurduqdan sonra əmək fəaliyyətini dayandırıb. 4 övlad böyüdüb. 4-ü də ali təhsilli. Görüşümüz üçüncü övladı Zaminlə bağlıdı. Nərgiz ana Zaminin şəkillərini göstərir, haqqında qürurla danışırdı. Danışdıqca fərəhlənir, gözlərinin işığı artır elə bil. Düşünürəm: şəhidlər kimi, belə oğul böyüdən anaları da unutmaq olmaz. Onların ziyarətinə getmək, onlarla həmsöhbət olmaq vətəndaşlıq borcumuzdur.

Nərgiz ana oğlu haqqında xatirələrini danışdı:

- Ailə qurmağa tələsmirdi. Bizim təkidimizdən sonra qohumlardan birinin qızı ilə nişanladıq. Toy hazırlıqlarına başladıq. Otağını bəzədik. İndi bu otaq onun xatirəsilə dolub. Divardan asılan üçrəngli bayrağımız, Zaminin hərbi forması, şəkilləri... Bura bizim üçün, onu tanımayanlar üçün vətənpərvərlik muzeyidir. Hər gün işdən gəlib ilk bu otağa keçirəm. Ana-bala söhbət edirik.

1985-ci il oktyabrın 5-də Nehrəm kəndində dünyaya göz açan Zaminin anasının arzusu onu həkim görmək idi. Uşaq yaşlarından əlinə keçən məftilləri əyib gah tank, gah da avtomat düzəldirmiş; özünə də bəlli olmayan bir istəyi varmış...

Nərgiz ana bildirdi ki, oğlu öz yolunu seçibmiş. Onun seçiminə hörmətlə yanaşdıq. Orta məktəbdə oxuyarkən artıq Sovet İttifaqı dağılmışdı, Azərbaycanın müstəqilliyini qorumaq uğrunda mübarizə aparırdı. Ulu öndər Heydər Əliyevin sərəncamı ilə 1998-ci ildə Naxçıvanda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin filialı yaradıldı. Böyük qardaşı Zaur bu liseyin ilk məzunlarındandır. 2000-ci ildə Zamin Hərbi liseyin kursantı oldu. Liseyi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini də uğurla başa vurdu, leytenant rütbəsi ilə ordu sıralarında xidmətə başlayan Zamin öz istəyi ilə cəbhə bölgəsinə göndərildi.

Leytenant Zamin Məmmədov 2008-ci ildə ayağından güllə yarası alsa da, müalicə olunub yenidən səngərə qayıdır.

Sonuncu məzuniyyəti 2010-cu ilin oktyabrına təsadüf edir. Anasının xahişi ilə sinif və kursant yoldaşlarını ad gününə dəvət edir. Bu onun həyatında təmtəraqlı qeyd olunan ilk və sonuncu ad günü olur.

Yeni il ərəfəsində Azərbaycan televiziyasının əməkdaşları Zamin Məmmədovdan müsahibə alır və onun "Arzuların varmı?", - sualına cavabı belə olur.



- Taqım komandiri leytenant Zamin Allahverdi oğlu Məmmədov. Yeni il işğaldan azad olunacaq torpaqlarda qeyd etmək. Ali Baş Komandanın əmrini gözləyirik. Bu əmri layiqincə yerinə yetirəcəyimizə əminəm.

2011-ci il yanvarın 25-də ermənilərin açdığı atəş nəticəsində Zamin Məmmədov şəhid olub.

- Divara asılmış bayrağa bükülüb gəlib oğlum. Həmin bayrağı məzarı üstünə sancmaq istədilər, qoymadım. Tanrı mənə ömür versin, torpaqlarımızın azad olunmasını görüm. O bayrağı öz əllərimlə Zaminin uğrunda şəhid olduğu torpaqlara sancacağam. Qocalıb əldən düşsəm də, sürünə-sürünə də olsa, o torpaqlara gedəcəyəm, - dedi şəhidin anası.

- Lələtəpə yüksəkliyinin alınması xəbərini eşidəndə işdən çıxıb qaça-qaça evə gəldim. Bu şad xəbəri Zaminə yetirmək üçün. Saatlarla dayandım şəklinin qarşısında. Ana-bala söhbət etdik. Sanki mənə dünyaları vermişdilər. Oğlumun ruhu az da olsa, dinclik tapırdı axı. Bundan iki il sonra Günnüt zəfəri mənə qol-qanad verdi. Oğlumun itkisindən sonra hər iki zəfər müjdəsi mənim üçün əvəzedilməz pay idi.

- Nəvəm Ramal Abbasov bu il Heydər Əliyev adına Hərbi Liseyə qəbul olub. Çox sevindim. Özüm də liseyə getdim. Liseydə şəhid məzunların xatirəsinə həsr olunmuş lövhədə Zaminin də şəkli var. Nəvəmin əlindən tutub ora apardım. "Bax, dayınla öyün" dedim. Onun getdiyi yolun davamçısı ol.

Şəhid oğula da, şəhid oğul anasına da ehtiramımız tükənməyəcək.

Oktyabrın 5-i onun doğum günüdür - demişdi Nərgiz ana. Şəhidlər ölmür, şəhidlər unudulmur...

...Sənə də ehtiramımız var, Nərgiz ana. Sən şəhid anasısan. Oğlun Zaminin yolunu nəvən Ramal davam etdirəcək...

**Ruhiyyə RƏSULOVA,**
**Naxçıvan Televiziyasının baş redaktoru**

# Naxçıvan Qarnizonu üzrə hərbi qulluqçular arasında futbol birinciliyi keçirilib

*Naxçıvan Qarnizonu üzrə hərbi qulluqçular arasında futbol birinciliyi keçirilib. "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında təşkil olunan birincilikdə 15 komanda mübarizə aparıb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Əlahiddə Ümumqoşun Ordu Komandanlığının təşkil etdiyi və Olimpiya sistemi ilə keçirilən birincilikdə oyunları Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının hakimləri idarə ediblər.

3-cü yer uğrunda keçirilən oyunda motoatıcılar artilleriyaçılar üzərində 5:3 hesabı ilə qələbə qazanıblar. Xüsusi təyinatlı birləşmə ilə Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının futbol komandaları arasında keçirilən final görüşündə isə əsas və əlavə vaxtlarda hesab açılmadığından qalib komanda 11 metrlik zərbələrlə bəlli olub. Maraqlı idman mübarizəsi ilə yaddaqalan futbol birinciliyində 5:4 hesabı ilə qələbə qazanan tərəf Əlahiddə Əməliyyat Briqadası olub.

İlk üçlükdə qərarlaşan komandalar Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən diplom və kuboklarla mükafatlandırılıblar.

# Xəbərlər: hadisələr, faktlar

## Gürcüstan ilə Türkiyə hərbi sahədə əməkdaşlığın dərinləşməsində maraqlıdır



Türkiyənin Gürcüstandakı səfiri Fatma Geren Yazgen bu ölkənin müdafiə naziri İrakli Qaribaşvili ilə görüşüb.

Bu barədə Gürcüstanın Müdafiə Nazirliyi məlumat yayıb.

Məlumatda deyilir ki, görüş zamanı nazir Gürcüstanın NATO-ya inteqrasiyasında göstərdiyi dəstəyə və strateji tərəfdaşlığa görə Türkiyə tərəfinə minnətdarlıq edib. Tərəflər hərbi sahədə əməkdaşlığın daha da dərinləşməsinin vacibliyini vurğulayıblar.

Görüşdə, həmçinin regional təhlükəsizlik və birgə hərbi təlimlər keçirilməsi məsələləri diqqət mərkəzində olub. Gürcüstan və Türkiyə hərbçilərinin beynəlxalq sülhyaratma əməliyyatlarında birgə iştirakı, hərbi təhsil və təcrübə mübadiləsi, qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

## Səudiyyə Ərəbistanında qadınlara Silahlı Qüvvələrdə xidmət etməyə icazə verilib



Səudiyyə Ərəbistanının hakimiyyəti qadınlara ölkənin Silahlı Qüvvələrində xidmət etməyə icazə verib.

Bundan sonra səudiyyəli qadınlar bütün qoşun növlərində sıravilikdən çavuş rütbəsinədək qulluq edə biləcəklər.

Bu yaxınlara qədər Səudiyyə Ərəbistanı qadınlara münasibətdə ən mühafizəkar ölkələrdən biri hesab olunurdu. Kral Salman bin Əbdüləziz Al Səud hakimiyyətə gəldikdən sonra vəziyyət köklü surətdə dəyişməyə başlayıb. Ölkədə iqtisadi və sosial islahatlar barədə qəbul olunan plan - "Baxış-2030" xüsusən qadınların vəziyyətinə ciddi təsir edir, onların cəmiyyətin bərabərhüquqlu üzvünə çevrilməsinə şərait yaradır.

## İran ordusunun yeni hərbi texnika və robotları nümayiş etdirilib



Tehranda İran ordusunun yeni hərbi texnikası və hərbi robotları nümayiş etdirilib.

Yeni istifadəyə verilən zirehli hərbi avtomobil dağlıq ərazidə asanlıqla hərəkət edə bilir. Bununla yanaşı, ağıllı hərbi robotlar da nümayiş olunub. Bu robotlar "Heydər-1" elektron sistemi ilə təmin olunub. Belə ki, robot sistem vasitəsilə aldığı əmr və tapşırıqların icrasına başlayır.

Eyni zamanda, yeni istehsal olunan pilotsuz uçuş aparatı (PUA) da nümayiş etdirilib. "Farpad" adlanan PUA çox yüngüldür və əllə idarə olunur. PUA-nın havada buraxdığı radiodalğalar düşmənin radiolokasiya sistemlərinin fəaliyyətinə maneə yaradır. Nəticədə düşmənin radiolokasiya sistemləri təyyarələrin havada yerini müəyyən edə bilmir.

İranın Müdafiə naziri, general Əmir Xatəmi bildirib ki, ölkəsi yaxın günlərdə hava hücumundan müdafiə sahəsində yeni texnikaları da nümayiş etdirəcək. General deyib ki, yeni hərbi texnikalar sırf İran istehsalıdır.

## Malidə qiyamçı silahlı qruplaşma 25 əsgəri öldürüb



Afrikanın qərbində yerləşən Malidə "Əl-Qaidə" terror təşkilatı ilə əlaqəli olan "Tuareq" qiyamçı qruplaşmasının silahlıları ordu düşərgəsinə hücum ediblər. Mali hökuməti 25 əsgərin öldürüldüyü və daha 60 hərbçinin əsir alındığı barədə məlumat yayıb.

Hökumətin məlumatında bildirilir ki, qiyamçılar Mali ordusunun silah-sursat anbarını da özləri ilə aparıblar. Qeyd olunur ki, bu insidentdən sonra silahlı qüvvələr regiondakı fransız qoşun kontingentinin də dəstəyi ilə Burkina-Faso sərhədində genişmiqyaslı hərbi əməliyyata başlayıblar.

**AZƏRTAC-ın materialları əsasında**

*Ovqat*

# Həsrətə, ayrılığa, işğala Azərbaycan əsgəri son qoyacaq...



Nəvəmi uzun müddət müalicə etdirsək də, sağalmırdı. Həkimlərdən birinin bu xəstəliyin müalicəsinin Naxçıvan Muxtar Respublikasındakı "Duzdağ"ında mümkün olduğunu deyəndən sonra ləngimədən yola hazırlaşdıq. Təyyarə ilə uçmaq mümkün olmadığından, Naxçıvana İran İslam Respublikasının ərazisindən keçməli olduq. Deməli, Araz boyu gedəcək, 26 illik ayrılıqdan sonra qoynunda dünyaya göz açdığım doğma yerləri uzaqdan da olsa görəcəkdim...

Qonşu dövlətin ərazisinə ayaq basanda günəş üfüqdən yenicə boylanırdı. Yollarsa uzandıqca uzanıb gedirdi. Beş saatdan sonra mənzil başına çatmalıydıq. İlk dəfə gördüyüm üçün ətrafa maraqla baxırdım. İki saatdan sonra Arazın sahilinə yaxın yerlərə çatdıq. Buradan ölkəmizin ərazisini asanlıqla seyr edə biləcəkdik. Vətən elə yaxından da, uzaqdan da gözəldir, adama çox doğmadır... Füzuli rayonunun kəndlərinin yaxınlığından keçirik. Qanlı döyüşlərin getdiyi vaxtlarda oralarda çox olmuşdum. İndi o kəndləri yaxınlarıma göstərərək: "Bax ora Kərimbəylidir, bura Yağlıvənddir, o tərəf Babıdır, bu isə Arayatlıdır...", - deyirəm.

Yuxarı getdikcə bayaq gördüyümüz gözəl mənzərələr sanki qeybə çəkilir. O gözəlliyin yerini ürək dağlayan səhnələr tutur. Dağıdılmış evlər, yandırılmış yurd yerləri, söndürülmüş ocaqlar sanki körpə kimi ağlayır. İlk olaraq gördüyümüz Cəbrayıl rayonunun bir vaxtlar axarlı-baxarlı olan bu kənd-kəsəklərinin sinəsinə ermənilər dağ çəkib, yandırıb dağıdıblar. Neçə illərdir bu gözəl torpaqlar işğalçıların murdar caynaqlarında qalıb inləyir. Kəndləri yandırıb dağıtmaqla kifayətlənməyən daşnaklar dərələri də, dağları da odlayıblar. Sanki torpağa, daşa da işgəncə veriblər. Bu kədərli mənzərələrə ürək ağrısı ilə baxıram. Ağrı-acının ağırlığından ürəyim sızıldayır. Ötüb arxada qalmış gözəl illərdə bu yerlərdən "Bakı-Qafan" qatarı ilə keçib gedər, vaqonların pəncərəsindən bir vaxtlar göz oxşayan, indi isə qan ağlayan bu yerləri seyr edərdik. O çağlarda bu kəndlərdə həyat var idi, insanlar arın-arxayın yaşayırdılar. İndi bu yerlər min illərin sükutuna dalıb. Xudafərin körpüsünün hüzünlü görünüşünə də elə eyni hüzünlə baxdım. Sanki min illərin tarixi əbədi olaraq donub burada qalmışdı.

Nə qədər o tərəf, bu tərəfə baxsam da, gözümə erməni işğalçıları dəymir. Yalnız beş-üç kilometrdən bir hündür yerlərdə yaşıl rəngdə keşikçi-gözətçi məntəqələri görünür. Yəqin ki, düşmən işğal etdiyi ərazilərə buradan nəzarət edir.

Yavaş-yavaş qoynunda dünyaya göz açdığım Zəngilan rayonuna yaxınlaşırıq. Xeyli irəli gedəndən sonra bir göl görürük. Əvvəllər burada belə bir şey yox idi. Böyük bir ərazini əhatə edən göl rayonun Havalı kəndinin ətəklərinə qədər gedib çıxır. Maşınımızı Həkəri çayının Araza qovuşduğu yerin tuşunda saxlayıb hündür bir təpənin üstünə çıxaraq buradan 26 ildir həsrətini çəkdiyim, nisgili ürəyimdə qubar bağlayan doğma ocaqlarımıza tərəf boylanıram. Nə qədər hündürlüyə qalxsam da, buradan heç nə görə bilmirəm. Sərhədə yaxın olan Havalı, Zərnəli kəndlərində bir neçə evin divarları güclə gözə dəyir. Oradan yuxarıda olan Məmmədbəyli və mənim doğulub böyüdüyüm Babaylı kəndinin isə izi-tozu da görsənmir. Heç elə bil nə vaxtsa buralarda kənd olmayıb. Heç elə bil buralarda insanlar yaşamayıblar. Heç elə bil bizim uşaqlığımız buralarda keçməyib. Kənd tərəfdən gözümü çəkib gecələr şırıltısı ilə bizə lay-lay çalan Həkəri çayına baxıram. Çayın sahili boyunca böyük yaşıl zolaqlıq uzanıb gedir. Aman Allah, bu anlarda hansı hisslər keçirirəm, nələr düşünürəm, hansı acıları yaşayıram? Bunu ancaq illərdən bəri doğma yurduna həsrət qalanlar bilər. Bu hissləri qələmə almaqda sanki qələm də, söz də acizdir. Həsrətdən ürəyim çırpınır, qəlbim titrəyir. Bu anlarda quş olub kəndimizə uçmaq, doğma ocaqlarımızı, yurd yerlərimizi görmək, əzizlərimizin məzarını ziyarət etmək keçir könlümdən. Uşaqlığım, gəncliyim keçən o doğma yerləri qarış-qarış gəzmək istəyirəm. Ötən illər kino lenti kimi gözlərimin qarşısından gəlib keçir. Çox qəribədir yaşadığımız həyat. Uşaqlıq illərində sıldırım qayaların üstünə çıxıb indi dayandığım bu yerlərə baxardıq. O vaxtlar buralar bizə nağıllar aləmi kimi görünərdi. Bu günsə buradan doğma ocaqlarımıza boylanıram. İndi də o yerlər mənə nağıllar aləmi kimi görünür.

Uzaqdan qoynunda doğulub boya-başa çatdığın, dədə-babanın məzarı qaldığı yerlərə baxmaq, oraların həsrətini çəkmək çox dəhşətlidir. Bu anlarda mənə elə gəlir ki, dünyada ən ağrılı-acılı bir şey varsa, o da doğma ocaqlarından didərgin düşməkdir. Buradan kəndimizə maşınla 10 dəqiqəlik yoldur. Amma 26 ildir ki, o yerlərə həsrət qalmışıq. Ermənilər doğma ocaqlarımıza gedən yollarımızı bağlayıblar. Bu yollara qan çilənib, bu yollara insanlara ölüm gətirən minalar basdırılıb. İndi bu yollar təhlükəlidir, çünki ermənilər üstümüzə silah tuşlayıblar.

Amma biz bu silahlardan qorxmuruq. Necə olursa-olsun, biz qan çilənmiş yollarımızı erməni qəsbkarlarından təmizləyəcək, işğala son qoyacaq, onlara yaxşıca dərs verəcəyik. Necə ki, 2016-cı ilin Aprel döyüşlərində qəsbkarların mövqelərini darmadağın edib Talış kəndinin yüksəkliklərini, Lələtəpə yüksəkliyini azad etdik. Aprel döyüşlərinə qədər cəmiyyətdə ermənilərin məğlubedilməzliyi barədə mif dolaşırdı. Cəsur zabit və əsgərlərimiz Aprel döyüşlərində daşnakları məğlub edərək bu mifi ayaqlar altına atdılar. İnanıram ki, döyüşlər yenidən başlayarsa, düşmən gündən-günə güclənən ordumuz tərəfindən darmadağın ediləcək. Düşmən məhvə sürüklənəcək və intizara, həsrətə son qoyulacaq.

Axı həsrətin, nisgilin də bir sonu olmalıdır! Bu illərlə çəkə bilməz. Hər həsrətin sonunda bir vüsal, bir sevinc var. Biz tez bir zamanda istəyimizə çatmalıyıq. Torpaqlarımızı ermənilərdən azad etmək Vətən qarşısındakı ən şərəfli borcumuzdur. Bu borcu az bir vaxtda layiqincə yerinə yetirməliyik. İşğal altında olan torpaqlarımız oğullarımızın gəlişini gözləyir. Erməni işğalına yalnız gündən-günə güclənən Azərbaycan Ordusu və onun sıralarında ləyaqətlə xidmət edən vətənpərvər oğullarımız cəsarəti və hünəri ilə son qoyacaq! Buna tam əmin olan xalqımız ordusundan, zabitindən, gizirindən, əsgərindən Qələbə gözləyir.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# RQD-5 əl qumbarası




İlk qumbaralar XX əsrin əvvəllərində hazırlanıb, bir çox münaqişə və müharibələrdə istifadə edilib.

Müasir döyüş qumbaraları gövdədən, partlayıcı maddədən və alışdırıcıdan ibarətdir. Bəzi hallarda qumbaraya hazır məhvedici elementlər də daxil edirlər. Məhvetmə prosesi zərbə dalğası və qəlpələr hesabına baş verir. Onun çəkisi kiçik olduğuna görə güclü və bacarıqlı əsgər onu 40-50 metrə qədər ata bilər.

Piyadalar əleyhinə əl qumbaraları arasında müdafiə və hücum qumbaralarını ayırırlar. Müdafiə əl qumbaralarının hücum əl qumbaralarına nisbətən qəlpələrlə məhvetmə radiusu yüksəkdir. Müdafiə qumbaraları səngərdən hücum edən düşmən əsgərinə qarşı istifadə edilir. Hücum əl qumbaralarının qəlpələrinin yayılma radiusu kiçik olduğundan ondan açıq sahələrdə də istifadə etmək olur.

Hazırda piyadalar əleyhinə RQD-5 qumbaralarından dünyanın bir çox ordularında və nöqtələrində baş verən münaqişələrdə istifadə edilir.

Bu hücum əl qumbarasıdır. Bu qumbara atılandan bir müddət sonra partlayış əmələ gətirir. Onun quruluşu oval formada, çəkisi azdır, yuxarı və aşağı gövdədən ibarətdir.

RQD-5 qumbarasının diametri 58 mm, korpusunun hündürlüyü 76 mm-dir. Qumbarada iki UZRQM və UZRQM-2 alışdırıcılarından istifadə edilir. Fitillə birlikdə hündürlüyü 117 mm-dir. Qumbaranın çəkisi 310 qramdır. Alışdırıcı 3,2-4,2 saniyə ərzində işə düşür. Mərmilərin geniş yayılma radiusu 20 metrdən çoxdur.



**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## "Qarabağ" səfərdə "Düdelanj"ı böyük hesabla məğlub edib



UEFA Avropa Liqasının 2019-2020-ci il mövsümünün qrup mərhələsinin ikinci turu çərçivəsində keçirilən "Düdelanj"-"Qarabağ" oyunu keçirilib.

Lüksemburqdakı "Jozi Bartel" stadionunda baş tutan görüş komandamızın inamlı qələbəsi ilə yekunlaşıb (1:4). İlk dəqiqələrdən oyuna hücumlarla başlayan "Qarabağ" matçın 11-ci dəqiqəsində Abdulla Zubirin sayəsində hesabı açıb. Matçın 30-cu dəqiqəsində Qara Qarayevin ötürməsindən sonra Miçel rəqibin qapısına başla dəqiq zərbə vurub. "Qarabağ"ın rəqib qapısına vurduğu ikinci qoldan sonra dron vasitəsilə stadionun üzərində qondarma "Dağlıq Qarabağ respublikası"nın bayrağı gətirilib. Oyunda fasilə elan edilib. On beş dəqiqəlik fasilədən sonra oyun davam edib.

Qarşılaşmanın 37-ci dəqiqəsində rəqibin müdafiəçiləri qapıçı ilə təkbətək çıxan Miçelə qarşı qaydanı pozublar. Görüşün baş hakimi 11 metrlik cərimə zərbəsi təyin edib. Topa yaxınlaşan Riçard Almeyda fürsəti əldən verməyib. Komandalar fasiləyə "Qarabağ"ın 0:3 hesablı üstünlüyü ilə yollanıb.

Oyunun 69-cu dəqiqəsində ağdamlılar rəqibi dördüncü dəfə meydanın mərkəzinə dəvət ediblər. Dani Kintana adını tabloya yazdırıb.

Oyunun başa çatmasına bir dəqiqə qalmış meydan sahibləri qollardan birinin əvəzin çıxıb. Antuan Bernye fərqlənib. Görüş 1:4 hesabı ilə başa çatıb.

## Çində keçiriləcək Hərbçilərin 7-ci Dünya Oyunlarına 236 min könüllü cəlb olunub




Beynəlxalq Hərbi İdman Şurasının (CİSM) Çinin Uxan şəhərində keçiriləcək Hərbçilərin 7-ci Dünya oyunlarına 236 min könüllü cəlb olunub.

Oyunların təşkilat komitəsi xəbər verir ki, onların 210 mini turnir zamanı Uxan şəhərində, 26 mini isə yarışların keçiriləcəyi məkanlarda xidmət göstərəcək. Könüllülərin əksəriyyəti Uxandakı 80 universitet və kollecdən seçilmiş tələbələrdir. Onların arasında 178 əcnəbi də var.

Təşkilat komitəsinin məlumatında deyilir ki, könüllülərin oyunlar vaxtı iştirakçılara, tamaşaçılara, qonaqlara və jurnalistlərə daha yaxşı xidmət göstərmələri üçün bir neçə dəfə müxtəlif istiqamətlər, o cümlədən yol bələdçiliyi, xarici dil, idman növləri, nəqliyyatdan istifadə üzrə təlimlər keçirilib.

Qeyd edək ki, Hərbçilərin 7-ci Dünya Oyunları oktyabrın 18-dək 27-dək Çinin Xubey vilayətinin inzibati mərkəzi olan Uxan şəhərindəki 35 məkanda keçiriləcək. İndiyədək 110 ölkədən təxminən 10 min hərbçinin oyunlarda iştirakı təsdiqlənib.

## Azərbaycan karateçisi Səlahət Həsənov açıq Qafqaz çempionatının qalibi olub



Azərbaycan idmançısı Səlahət Həsənov kyokuşin karate üzrə açıq Qafqaz çempionatının qalibi olub.

Batumidə təşkil olunan yarışda 80 kiloqram çəki dərəcəsində çıxış edən idmançımız bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

**AZƏRTAC-ın materialları əsasında**

Mayor Sayılov Rəşad İltizam oğluna 2018-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Ruslan HƏSƏNZADƏ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 608
Nüsxə 3950